## Lətif Feyzullayev – 100

**İstedadlı rəssam idi Lətif Feyzullayev. Yaratdığı əsərlərin hər birində onun qəlbinin döyüntüləri yaşayır. Bu əsərlər indi dünyanın bir sıra muzeylərinin daimi eksponatına çevrilmişdir.**

# Əsərlərinə Abşeronun rəngləri hopmuşdu



Əməkdar incəsənət xadimi Lətif Feyzullayev 1918-cin ilin sentyabr ayında doğulmuşdu. 1939-cu ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna daxil olmuşdu. Texnikumu bitirdikdən sonra təhsilini Moskvada V.İ.Surikov adına Dövlət Rəssamlıq İnstitutunun rəngkarlıq fakültəsində davam etdirmişdi. Bu illərdə o, müəllimləri Moçalski, Pokarjevski və Qrabardan təsviri sənətin incəliklərini böyük həvəslə öyrənmişdi. Hələ tələbə ikən gələcək rəssam "Qaçaq Nəbi" və "Qatır Məmməd" kimi tarixi mövzulu əsərləri ilə respublika sərgilərində iştirak etmişdi. Rəssam Böyük Vətən müharibəsi illərində hərbi vətənpərvərlik ruhunda bir sıra əsərlər yaratmış, hərbi hissələrdə təbliğat-təşviqat xarakterli plakatların müəllifi kimi tanınmışdı. O, eyni zamanda, Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda da dərs deyirdi.

1944-cü ildə Lətif Feyzullayev yarımçıq qalmış təhsilini davam etdirmək məqsədilə Moskvaya qayıtmış və orada təhsil alan Vəcihə Səmədova ilə ailə qurmuşdu.





İnstitutu uğurla bitirən L.Feyzullayev 1949-cu ildə Bakıya qayıtmış, müharibədən sonrakı illərdə qurub-yaradan insanların – müharibə və əmək qəhrəmanlarının, kənd zəhmətkeşlərinin, fəhlələrin əməyi rəssamın əsərlərinin əsas mövzusunu təşkil etmişdir.

XX əsrin ortalarından əfsanəvi Neft daşlarının istismarına başlanılması ilə Lətif Feyzullayevin yaradıcılığında Xəzər neftçilərinə həsr olunmuş yeni, romantik mövzulu silsilə əsərlər dövrü başlanır. "Vaxta" (1951), "Küləkli gün" (1957), "Tufandan qabaq" (1959), "Fontan" (1962) bu silsiləyə aid olan əsərlərdəndir.

Abşeronun özünəməxsus, təkrarolunmaz təbiəti rəssamı klassik mənzərə janrından kənara çıxan, sərt kontrastları və parlaq rəng üslubu ilə seçilən bir sıra orijinal mənzərələr yaratmağa sövq edir. "Abşeronda bahar", "Buruqlar", "Yay", "Abşeron qumları", "Qayalar", "Abşeron bağları" əsərləri buna bariz nümunədir.

İstedadlı rəssam bir çox maraqlı portretlərin müəllifi kimi də tanınır. Buna misal olaraq "Rəssam Vəcihə Səmədovanın portreti", "Neftçi Gülbala Əliyev", "Fatimə", "Qoca", "Abşeronun qonağı" və "Güclü"nu göstərmək olar.

Altmışıncı illərdə Lətif Feyzullayevin Bolqarıstana yaradıcılıq ezamiyyəti çox məhsuldar keçmişdi. Rəssam bu ölkə haqqında maraqlı bir sərgi ilə sənətsevərlər qarşısında hesabat vermişdi.

Bu il iyulun 14-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Fransanın Kann şəhərində baş tutan Azərbaycan mədəniyyəti günləri çərçivəsində Festivallar və Konqreslər Sarayında Lətif Feyzullayev və Vəcihə Səmədovanın əsərlərindən ibarət "Məhəbbət tandemi" adlı sərgi keçirilmişdir. Sərgidə hər iki rəssamın doğma yurdumuzun gözəlliyini, soydaşlarımızın həyat tərzini, qayğılarını və əməyini əks etdirən əsərləri böyük maraqla qarşılanmışdı. Həmçinin hər iki rəssamın həyat yolundan bəhs edən videoçarxlar nümayiş olunmuşdu.

Bu günlər rəssamın yaradıcılığı yenidən xatırlanır, əsərlərinin sərgisi keçirilir.

*M.MÜKƏRRƏMOĞLU,*
*"Xalq qəzeti"*